**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

**SƏRƏNCAM**

**28 avqust 2026-cı il** **10-1/3-3-32/2026**

**Auditorlar Palatası Şurasının 2022-ci il 3 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş və 2023-cü il 16 may tarixli 356/1 nömrəli qərarı ilə dəyişiklik edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nin təkmilləşdirilməsi barədə**

Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, xidmət bazarında haqsız rəqabətə yol verilməməsi və sifarişçi təsərrüfat subyektlərində auditor xidmətlərinin dəyəri barədə obyektiv fikrin formalaşdırılması məqsədilə Auditorlar Palatası Şurasının 2022-ci il 3 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş və 2023-cü il tarixli 16 may 356/1 nömrəli qərarı ilə dəyişiklik edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatasında aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri:***

Rövşən Cəfərli – Haqsız rəqabətə qarşı mübarizə, keyfiyyətə kənar nəzarət və beynəlxalq əlaqələr idarəsinin rəisi.

***İşçi qrupunun üzvləri:***

Ənvər Aslanov – Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər idarəsinin rəisi;
Vasif Cavadov – Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi;
Mehdi Babayev – Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri, "BAKI HESABAT MƏRKƏZİ" MMC-nin direktor-auditoru;
Rüfət Əliyev – Palatanın Şurası yanında Auditin hüquqi təminatı və cinayət

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/wcvFu%2FIWQNpSS2d2xwaimF3IgH6%2BDSxiT5bOGtnx3Vg%3D

yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin sədri, “A Audit and Consulting” MMC-nin direktor-auditoru.

2. İşçi qrupuna tapşırılsın ki, iki ay müddətində “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nin təkmilləşdirilməsi barədə təkliflərini hazırlayıb Auditorlar Palatasının Şurasında müzakirə edilməsi üçün təqdim etsinlər.

3. Bu sərəncamın icrasına nəzarət Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədova həvalə edilsin.

4. Bu sərəncamın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/wcvFu%2FIWQNpSS2d2xwaimF3IgH6%2BDSxiT5bOGtnx3Vg%3D